UOT 39

RƏNA İBRAHİMOVA
Bakı Dövlət Universiteti Arxeologiya və Etnoqrafiya kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru
rena.ibrahimova.historian@gmail.com

QARABAĞIN QEYRİ-MADDİ MƏDƏNİ İRSİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/217-222

Məqalə Yelizavetpol quberniyasının Cavanşir və Zəngəzur qəzalarına həsr olunmuş XIX əsrin ikinci yarısına aid yazılı mənbələr əsasında əhalinin etnik tərkibinin, təsərrüfat fəaliyyətinin, ailə həyatının öyrənilməsi haqqındadır. Yerli əhali əsasən azərbaycanlılar, azsaylı şiə kürdlər, ermənilər, tatlar və rus təriqətçilərindən ibarət idi. Onlar süni suvarmadan istifadə etməklə əkinçilik, bağçılıq, üzümçülük, arıçılıq, taxıl və paxlalı bitkilər becərməklə, pambıqçılıq və çəltikçiliklə məşğul olurdular. Yaylaq maldarlığı mühüm əhəmiyyət kəsb edirdi, əhalini ət-süd məhsulları, sənətkarlıq və xalçaçılıq üçün xammal ilə təmin edirdi. Məqalədə ailə başçısı atanın ölümündən sonra əmlak bölgüsü qaydaları, şəriətə görə nikah, "qan davası" kimi azərbaycanlıların patriarxal adət-ənənələri də araşdırılır.

Açar sözlər: Qarabağ, Zəngəzur, etnik tərkib, maldarlıq və əkinçilik təsərrüfatı, sənətkarlq, ailə məişəti.

Giriş. Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ regionu xalqımızın etno-mədəni irsinin mərkəzlərindən biri olmuş, qədim Azərbaycan sivilizasiyanın beşiyi sayılır. Qarabağın etnoqrafik baxımdan öyrənilməsi hələ XIX əsrin birinci yarısından, yəni Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğal olunmasından sonra başlamışdır. Azərbaycanın zəngin təbii resursları, məhsuldar torpaqları, əlverişli strateji mövqeyi çar hökuməti üçün böyük əhəmiyyət kəsb edirdi, məhz bu səbəbdən Azərbaycanın, o cümlədən Qarabağın etnoqrafik, toponimik, iqtisadi, coğrafi cəhətdən araşdırılması aparılmışdır. Cavanşir qəzasını Şuşa və Zəngəzur qəzalarından Dəli-dağ ayırırdı. Əsas su arteriyası Tərtər çayı idi. Qəzanın təbii sərvətləri mis, filiz və gümüş yataqlarından ibarət idi.

***

XVIII əsrin yarısından 1828-ci ilə qədər, yəni Qarabağa olan çəkişmələr nəticəsində qəzada mütəmadi olaraq emiqrasiyalar və immiqrasiyalar baş verirdi. Əhalinin böyük hissəsi tatarlardan (şiə-azərbaycanlılar) ibarət olmuşdu, az sayda qriqoriyan-ermənilər, şiə-kürdlər, tatlar, rus təriqətçiləri yaşayırdı. Kürdlərin əksəriyyəti qonşu Zəngəzurdan gəlmişdir, ermənilərin bir hissəsi buradan Gürcüstana, Şirvan və Şəki xanlıqlarına köcmüşlər, eyni zamanda buraya Qazaxdan azərbaycanlıların axını olmuşdur. 1795-1798-ci illərdə Cavanşir qəzasına Arazın o tayından, Mincivandan aclıq ucbatından bir neçə kəndin sakinləri gəlmişlər. 1825-1826-cı llərdə Cənubi Qafqaza, o cümlədən Cavanşir qəzasına İrandan 18 min erməni ailəsi köçmüşdür [5, s.339]. Tədqiqat aparılan dövrdə kürdlərin əksəriyyəti islam dininin təsiri altında doğma "kurmancı" dilindən azərbaycan dilinə keçmişlər. İran mənşəli ermənilərin ləhçəsi yerli ermənilərin danışığından fərqlənirdi, sonuncular isə Qarabağ ləhçəsini mənimsəmişdilər. Qəzanın 213 kəndindən 163-cü müxtəlif bəylərə məxsus idi. Mehdi-qulu xanın qızı Natəvan xanım Utsmiyavaya Bayandur, Minkənd məskənləri məxsus olmuşdur və kəndlilər məhsulun 1/10 hissəsini sahiblərinə verirdilər [2, s.19]. Suvarma üçün kifayət qədər su mənbəyi olmayan torpaqlar əkilib-becərilmirdi. Tərtər çayının suyunun 3/5 hisəsi çəltik zəmilərinin suvarması üçün istifadə olunurdu. Suyun kəndin ailələri arasında paylaşdırılmasına mirablar, kanalların təmirinə cuvarlar cavabdeh olublar [5, s.362]. Torpaq sahələri adətən bölüşdürülmürdü və irsi varidat kimi nəsildən nəsilə ötürülürdü. Dəmyə torpaqlar dağətəyi bölgələrdə yerləşirdi və əkin altında olurdu. Biçim sahələrini başqalarının təcavüzündən qorumaq üçün sahibi onu tikanlı kollarla hasarlayırdı. Dul qadınlara, azyaşlı yetimlərə, "gəlmələrə", kameral siyahılara adları düşməyənlərə torpaq sahələri çatmırdı [5, s.365]. Azərbaycanın klimatik şəraitində süni suvarma sisteminə böyük ehtiyac var idi.

Ən geniş suvarma sistemi Qarabağda yaradılmışdı. Qədim suvarma kanalları Pənah xan və İbrahim xanın idarəçiliyi dövründə bərpa olunmuşdu [4, s.17]. Kənd icmalarının ixtiyarında olan torpaq sahələrindən istifadə qaydaları xalq hüquq normalarına söykənirdi. Belə ki, hər bir icma üzvü icma torpağından istifadə edə bilərdi; gəlmə şəxs ailə varidatına sahib olan qadınla evləndiyi halda icma üzvu olurdu; istehsal olunmayan torpaq sahəsini başqası əkib-becərə bilər; taxıl yığımı və biçin işləri başa çatandan sonra o sahələrdə mal-qara otarmaq icazəlidir; hər bir icma üzvü icma torpaqlarında yabanı bitkilər toplaya bilər; məhsul yığımından sonra yoxsul kəndlilər zəmilərdə qalmış buğdanı toplaya bilərdi; buğda dərzlərinin oğurlugu cəzalandırılırdı; icma üzvləri su qıragında qamış toplamaq, çayda balıq tutmaq, meşələrdə ov edə bilərdi; su ehtiyatı icma üzvlərinin tam ixtiyarındadır; su kanalların təmizlənməsi, yeni kanalların çəkilməsində bütün ailələr iştirak etməli idi; icma üçün muzdlu çobanların və sahə keşikçilərin işə götürülməsinə bütün ailələrin razılıgı olmalı idi. Yeraltı və yerüstü sular, çaylar, göllər, çeşmələr, bulaqlar şəxsi istifadədə ola bilməzdi [2, s.49-50]. İcma əkin və biçin sahələrinin ailələr arasında yenidən bölüşdürülməsi ehtiyac olanda püşk atmaqla baş verirdi. Cavanşir qəzasının əhalisi kənd təsərrüfatının bir çox sahələri ilə məşğul olurdular. Meğri dairəsində sakinlər üzümçülük, bağçılıq, ipəkçilik, pambıqçılıq, burada yaşayan ermənilər əsasən buğdaçılıq, azərbaycanlılar və kürdlər maldarlıqla məşğul olurdular. Zəngəzur və Qafan dairələrində tut və gilas bağları salınmışdır. Bargüşad çayının sahillərindəki kəndlərdə ipəkçilik və çəltikçiliklə məşğul olmuşlar, arıçılıgın da öz yeri var idi [2, s.43]. Zəngəzurun ən sıx meşələri Qafan və Meğridə idi. Meşələrin zəngin flora və fauna aləmi var idi. Qəzada suvarma sistemi kəhrizlərdən ibarət idi. Suyun istifadə qaydaları müxtəlif olurdu. Bəzən bir neçə ailə birləşib bir kəhrizin suyundan ödədikləri vergilərin miqdarına görə müəyyən vaxt istifadə edirdilər. Bəzi kəndlərdə hər təsərrüfatın torpaq sahələrinin ölçülərinə görə su istifadə edə bilərdilər.

XVIII-XIX əsrlərdə Azərbaycanın vacib maldarlıq bölgələrindən biri Qarabağ xanlıgı olmuşdur [4, s.17]. Cavanşir qəzasının dağlıq hissəsində 1828-ci ilə qədər azərbaycanlılar və ermənilər sıx məskunlaşmışdılar. Amma bundan sonra əhali tədricən buradan köçdu, əkin torpaqları baxımsız qaldı. Burada özünə yurd qurmuş kürdlər və ayrumlar heyvanlarına qışa yem tədarükü etmədiklərinə görə 7-8 ay ərzində meşələri aramsız qırır, cavan ağacların qabığı və budaqları ilə heyvanlarını yemləyirdilər. Maldar icmaları arasında yaylaq sahələri iri buynuzlu heyvanların sayına görə bölüşdürülmüşdü və buna uyğun icmalardan ödənc yıgılırdı. 10 baş xırda heyvan bir baş qara mala bərabər tutulurdu, danalar, quzular, atlar, uzunqulaqlar saya alınmırdı. 1869-cı ilə qədər Cavanşir qəzasını Şuşa qəzasından ayırmamışdılar, bu səbəbdən maldarlar heyvan sürüləri ilə birgə Şuşa qəzasındakı Qarqar çayının sahilində 3-4 həftəlik alaçıqlarını qururdular [5, s.376]. Yaylaq köçünün başlanması el-oba bayramına çevrilərdi. Hamı təmiz və səliqəli geyinərdi, qoç qurban kəsib yemək süfrəsi salınardı, yüklənmiş öküz, kəl, at, dəvə və arabaları bəzəyirdilər [8, s.32]. Tərəkəmələr yaylağa hamıdan tez çıxır və hamıdan gec qayıdardılar. Köç mart ayında, ya mayın axırı başlayırdı və maldarlar yol boyu bir ya iki həftəlik müvəqqəti düşərgələrdə dincəlirdilər. Maldarların köçü oturaq əhaliyə böyük ziyan verirdi: onların əkinləri mal-qara sürülərinin tapdağı altında qalır, oğurluq hadisələri baş verirdi. Hər maldar icmanın yaylaqda təyin edilmiş öz otlaq yeri olurdu. Alaçıqlar dağ ətəyində cənub istiqamətində, bulaq, çeşmə yanında qurulurdu. Əvvəl alaçıq üçün meydança hamarlayır, sonra çubuqları dairə boyu yerə basdırırdılar, onların uclarının bir-birinə bağlayıb çəmbərəyə salırdılar. Çubuqların üzərinə keçə salınırdı [2, s.73]. Qışlaqlar kəndlilərin əkin sahələrinin bir hissəsini təşkil etdiyinə görə onlardan pulsuz istifadə olunurdu. Tərəkəmələrin həyat tərzi oturaq əhalinin həyat tərzinə nisbətdə daha sağlam idi. İlin böyük hissəsini at belində, yayda sərin dağ yaylaqlarında, qışda isə aranda isti qışlaqlarda keçirirdilər. Lakin tərəkəmə təsərrüfatının itkiləri də çox olurdu: uzun sürən köç zamanı heyvan itkiləri onları əkinçi əhalidən iqtisadi cəhətdən daha zəif edirdi, məhz bu səbəbdən tərəkəmələr əkinçiliklə məşğul olmaga üstünlük verməyə başlamışlar [5, s.378]. Azərbaycan maldarları bir qayda olaraq heyvanları barmaqla, say hesabı yolu ilə saymırdılar, əgər-əskiyini, yəni yerində olub-olmamasını nişanlarına görə yoxlanması adəti qədim tarixə malikdir. Bu ənənənin yaranması, həm də belə bir inamla bağlı olmuşdur ki, heyvanların sıra ilə sayılması, guya bədbəxtlik gətirər, onları vəhşi yırtıcılar parçalayar və yaxud xəstəlik baş verib, kütləvi qırğına səbəb olar. Məhz belə bir inamın mövcud olmasına görədir ki, hazırda da ailə üzvlərinin barmaqla sayılmasına icazə vermirlər. Güya bu amil, ailə üzvlərinin sayının azalmasına səbəb olur [8, s.73].

Zəngəzur qəzasında əkin sahələrini emal etmək üçün əsasən dörd alətdən istifadə olunurdu: xış, kotan, vəl və mala. Ulamalı xış konstruksiyasına görə çəltik sahələrini də şumlamağa yarayırdı [1, s.13]. Adi kotandan başqa 8-9 cüt qara mal qoşulan, xeyli işçi qüvvəsi tələb edən ikitəkərli qara kotan var idi. Xalq arasında bu şum alətinə ağır kotan, kəl kotanı, əyribazı kotan da deyilirdi. Qara kotan torpağı daha narın edirdi, buna görə də məhsul bol yetişirdi [7, s.52]. Bir neçə ailə birləşib qara kotandan növbə ilə şərikli şum işləri aparırdılar. Tapan ya mala toxumun torpağa səpildikdən sonra istifadə olunurdu. Məhsulu sahələrdən çin və oraqla yıgırdılar. Torpaq iki dəfə əkilirdi: yazda və payızda. İki, üç ildən bir sahələr məhsuldarlığı bərpa etmək üçün dincə qoyulurdu, eyni məqsədlə torpaqda qalmış samanı yandırır, qara malın peyinini kübrə əvəzi torpaqla qarışdırırdılar. Dənli bitkilərdən sonra sahələrdə yonca, mərci əkilirdi. Buğdanı yazda "yazlıq" və payızda "dondurma – güzlük" növlərini əkirdilər. Payızda ən çox "gürgana" (qara-qılçıq, qırmızı-qılçıq, ağ-qılçıq) ya "sarı buğda" əkirdilər. Meqri dairəsində covdar yetişdirilirdi. Heyvanları yemləmək üçün payızda əkilən "toxmaq" adlanan arpa, lakin çörəyin bişirilməsində yazlıq arpa yararlı idi [2, s.85]. Dəmyə əkinlərin suvarmaya ehtiyacı olmadıgı halda, digər torpaqlara isə iki dəfə - baharda və məhsunun yığımından öncə su verilirdi. Məhsulun zəmilərdən yığımı iyunun axırından sentyabra qədər davam edərdi. Yıgılmış məhsulu xırmana çatdırır, orada yerə sərib vəllərlə təmizləyirdilər. Təmizlənmiş dənin saxlanılmasının müxtəlif üsulları var idi. Kürdlər və azərbaycanlılar kisələrdə, çuvallarda, unu isə ağacdan düzəldilmiş sandıqlarda, samanı samanlıqlarda saxlayırdılar. Buğda və arpanı dəyirmanda təmizləyirdilər. Çəltik Bargüşad, Basut-çay sahillərində əkilirdi. Qubadlı, Qaralar, Rəşid, Mollalı, Qaracanlı, Qarahacılı, Şıx, Baharlı I, Şəfi-Bayramlı kəndlərin sakinləri bu işlə məşğul olmuşlar. Çəltik şitil əkmək üsulu ilə yetişdirilirdi. Sahəyə suyun qaydasında verilməsinə xüsusi keşikçi "suçu" nəzarət edirdi. Zəngəzur qəzasında iki növ çəltik yetişdirilirdi: hakina (isti-hakina və soyuq-hakina) və marağa. İstihakina növünü bişirmə prosesində həddindən çox artdığına görə "qazan çatladan" da adlandırmışlar [2, s.88].

Marağa çəltiyi bişirmə keyfiyyətinə görə daha baha qiymətə satılırdı. Xırmanda çəltiyi samandan təmizlənməsi prosesi digər dənli bitkilərlə eynilik təşkil edirdi. Çəltiyi qabığından ayaqla hərəkətə gətirilən "dingə" adlı alətlə təmizləyirdilər, samanı isə yanacaq kimi istifadə olunurdu. Dənli bitkilərdən darı, paxlalılardan mərci, noxud dəmyə torpaqlarda yetişdirilirdi. Pambıq sahələrinin ətrafında meyvə və tut ağacları əkilirdi. Sahələri beş dəfə sulayırdılar, sonuncu dəfə sentyabr ayında, yığımdan öncə baş verirdi. Pambıq sahələri mütləq iki dəfə alaq olunmalıydı. Bostançılıq təsərrüfatı Zəngəzur qəzasında lokal, fərdi xarakter daşıyırdı, əksər hallarda hər bir ailənin daxili tələbatını ödəyirdi. Paxla, soğan, kartof becərilirdi. Bağçıllq təsərrüfatında üzümçülük, meyvəçilik və tut ağaclarının yetişdirilməsi əsas yer tuturdu. Məhsuldarlığı artırmaq üçün üzüm tənəklərin ətrafını hər il budayır, üç ildən bir isə torpağı peyinləyirdilər. Hər il fevral ayının sonu, martın əvvəli artıq budaqlar kəsilməliydi. Zəngəzur bağlarında ağ üzüm növləri: ala-qora, kişmiş, şahanə, şahəngül; qara üzüm növləri: xatungəlin barmağı, şahanə və digərləri becərilirdi. Azərbaycanlılar üzüm məhsulunu dağ kəndlərində buğdaya dəyişirdilər, erməni əhalisi isə üzümdən şərab hazırlayırdı. Yetişmiş şərab tuluqlara doldurulub, qatırların belinə yüklənib satışa aparılırdı. Meyvə bağlarında əncir, nar, ərik, müxtəlif növ gavalı, qoz, albalı, gilas və s. bitirdi. Tut və üzümdən bəkməz hazırlanırdı.

XIX əsrin sonunda ipəkçiliiklə qəzada 811 ailə məşğul olurdu. İpək qurdlarını yemləndirmək üçün əhali cır tut və şah tut növlərini yetişdirirdi. Tut ağacında yarpaqlar açanda ipək qurdunu ayıldırdılar. Bunun üçün qadınlar ipək qurdunun yumurtalarını bezdən kisəçiklərə yığıb sinələrində gəzdirirdilər. Yumurtadan çıxmış qurdları üstünə tut yarpaqları sərilmiş tor üstünə yığırdılar, çalışırdılar ki, otağın hərarəti mülayim olsun. Sonuncu mərhələdə qurdları "kümxana"lara yerləşdirirdilər və yemləndirirdilər. İpəkçiliklə məşğul olan kürdlər muzdlu fəhlələr – kümdarlardan istifadə edirdilər. Baramanı satış üçün Ordubada aparırdılar [2, s.97].

Zəngəzur qəzasında əsasən qoyunçuluq inkişaf etmişdi. Azərbaycanlıların sofulu, dərzili, saralı, puşanlı tayfaları və kürdlər bu təsərrüfatla məşğul olmuşlar. Ən çox "herik" cinsli qoyunlarını yetişdirirdilər. Heyvanları sahibləri özləri ya müxtəlif şərtlərlə işə götürülmüş muzdlu çobanlar otarırdılar. Qoyunçuluq gəlirli təsərrüfat sahəsi idi və əhalinin bir çox məhsullara olan tələbatını ödəyirdi. Qoyunları bahar və yayda qırxırdılar, keçilərin qırxımı ildə bir dəfə baş verirdi. Yayda qırxılmış yun mahud, palaz və xalçaların, yazlıq yun isə keçə istehsalına sərf olunurdu. Keçi tükündən kəndir hö-

rürdülər. Qoyunları gündə bir dəfə sağırdılar, qara qoyunun südü ən yağlı sayılırdı. Yağı dəri ya ağacdan düzəldilmiş nehrələrdə qatıqdan çalırdılar. Pendir ancaq qoyun südündən hazırlanırdı. Hazır məhsulu keçi dərisinin içində saxlayırdılar. Doğmuş inəyin ya qoyunun ilk südündən mərasim yeməyi sayılan bulama bişirir və qonşulara paylayırdılar. Qoyunun dölünün içinə ilk sağılmış südünü doldurub, isti külün içinə basdırırdılar. Alınmış pendir kimi məhsul suluq adlanırdı [2, s.101]. Araçılıq köməkçi təsərrüfat olsa da, kəndlərin əksəriyyəti bununla məşğul olurdular. Arı pətəklərini yabanı qoz ağacının cavan budaqlarından silindrik formada hörürdülər. Qış aylarında pətəkləri bağlı yerdə, mülayim havada saxlayırdılar. Avqustun ikinci yarısında balın kəsimi başlayırdı. Əhalinin təsərrüfat məişətində qadınlar arasında xalça, palaz, mahudun toxunması vacib yer tuturdu. Sisian dairəsində kişilər bez parçaların istehsalı ilə məşğul olmuşlar, başqa yerlərdə isə bu qadın işi idi. Evlərdə hər bir qadının öz şəxsi toxuculuq dəzgahı olurdu. Kəndlilər kömürün istehsalı ilə məşğul olurdular, Qafan və Meğri dairələrin kəndliləri təsərrüfat işləri başa çatandan sonra misəritmə zavodlarında işləyirdilər. Dörd zavodda təxminən 500 fəhlə çalışardı [2, s.105].

Cavanşir qəzasında azərbaycanlı ailənin varidatı (daşınan və daşınmaz) atanın qoyduğu vəsiyyətə uyğun ailə üzvləri arasında şəriət qaydaları ilə bölünürdü. Oğullar qızlardan iki dəfə artıq pay alırdı, anaya varidatın 1/8 çatırdı, dünyasını dəyişmiş ananın payı övladlarına çatırdı. Böyük oğul atanın quranı, geyimi və silahına da sahib olurdu. Əgər ölənin evli bacısı qalırdısa əmlakın 1/3 ona verilirdi. Mərhumun vəsiyyəti olmadığı halda varidatın 1/2 hissəsi onun qardaşına, yaxud onun övladlarına (əgər yetim qalıblarsa), qalan hissəsi ailənin ixtiyarında olurdu. Ölənin qardaşı ayrı yaşadığı halda, bölgü ailə üzvləri arasında olurdu. Sonsuz ailə başçısının əmlakının 1/4 hissəsini dul arvad alır, 3/4 isə ölənin bacısı ya qardaşına çatırdı, əkin sahələri isə kənd icmasının ixtiyarına keçirdi. Şəriət qanununa görə ölənin borclarını yaxınları ödəyirdi. Ata əmlakının bir hissəsini xeyriyyə işləri üçün vəsiyyət edə bilərdi [5, s.367]. Kənd məişətində patriarxal qanunlar hökm sürürdü. Ailə başçısına böyük hörmət və ehtiramla yanaşır, uşaqlar ona sözsuz tabe olmalı idilər. İtaətdən çıxan oğulu ata evdən vəsaitsiz qova bilərdi. XX əsrin əvvəllərində aparılmış tədqiqatlar göstərir ki, 1923-cü ildə yaranmış Kürdüstanda (Şuşa,Cavanşir, Qubadlı qəzaları) kürdlərin ailə məişətində patriarxal münasibətlər qalmaqda idi. Belə ki, öz əməyi ilə ailənin firavanlığının təməlini qoyan, ailəni düzgün yola yönəldən ağsaqqala hər cür hörmət və nəvaziş göstərilirdi: o evin ən hörmətli yerində oturur, ən ləziz yeməklər ona verilir, o içəri girəndə hamı ayağa qalxırdı [6, s.9]. Nikah izdivacları əksər hallarda valideynlərin istəyi ilə baglanırdı. Nikaha girəndə "kəbin" sənədi tərtib olunurdu və toydan qabaq gəlinin ailəsinə verilirdi. Qanuna görə ər arvadın istədiyi vaxt ona kəbində göstərilən ödənci – "mehri" verməli idi. Boşanan kişi arvadına onun şəxsi əmlakı sayılan cehizini qaytarmalı idi. Əgər boşanma məsələsi qadının nalayiq hərəkətinə görə ortaya qoyulurdusa, ona mehrin yarı hissəsi verilirdi. Arvad vəfat edəndə cehizinin yarısı onun qohumlarına qaytarılır, qalan hissəsi ərinə çatardı, mehrin məbləği isə ölənin qanuni varislərinə çatırdı. Zəngəzur qəzasında yaşayan azərbaycanlı və kürdlər arasında qızqaçırtma və "qan qisası" adəti geniş təşəkkül tapmışdı. Əksər hallarda qızqaçırtma baş verəndə iki tərəf barışığa gəlirdi, adətən maddi durumu zəif olan ailələr bu yolla məsələni həll edirdilər. Lakin qan qisasında ailələr arasında barışıq qeyri-mümkün idi. Qatil, onun kişi qohumları, hətta onun bütün tayfa, ya icmanın kişi üzvləri illər boyu ölənin ailəsi (qohumlar, dostlar, tayfa üzvləri) tərəfindən təqiblərə məruz qalırdı. İki ailə arasında bu düşmənçiliyə ancaq qatil, ya ona yaxın olan adamın qətli ilə son qoyulurdu. Keçmişdə ədavət açıq aparılırdı, qatil və onun yaxınlarına hücumlar olunurdu, sonra çar hökümətinin qanunları bunun qarşısını alsa da, məxfi olaraq qan qisası davam edirdi [2, s.25].

Nəticə. Qarabağ əkinçilik və maldarlıq təsərrüfatlarının mərkəsi olaraq Azərbaycanın iqtisadi həyatında XIX əsrdə mühüm rol oynamışdı. XX əsrin əvvəlində, 1926-27-ci illərdə Qarabağda aparılmış etnoqrafik tədqiqatlar sübut edir ki, kənd əhalisi ənənəvi təsərrüfat məişətini müəyyən qədər saxlamışdır. Belə ki, Ağdam qəzasının Ağcabədi dairəsində 8 köç icması qeydə alınmışdır: 1) Xocavənd, 2) Afşar, 3) Kəbirli, 4) Parı-oğlular, 5) Cəfərbəyli, 6) Qara-ağaclılar, 7) Qara-dalaq, 8) Muğanlı. Əsasən Ağcabədi - Xalfərəddin kəndində aparılmış müşahidələr nəticəsində məlum olub ki, burada 12-15 yarımköçəri təsərrüfat olmuşdur. Bunların öz otlaqları var idi və maldarlar oktyabrın 1-dən aprelin axırına qədər davar, qara mal, at, öküz, dəvələri burada saxlayır, sonra isə Kürdüstana, Yüz-

bulaq yaylağına köç edirdilər. Əkinçi əhali əvvəlki kimi öküz qoşulmuş xışdan istifadə edirdi, buğda, arpa və pambıq yetişdirirdi. Bundan başqa bağçılıq, qismən ipəkçilik inkişaf etmişdi [3, s.49].

ƏDƏBİYYAT

1. Гулиев Г.А. О пахотных орудиях и системах земледелия в Азербайджане// АЭС. вып.II Баку. Изд. АН Азерб. ССР. 1985, с.5-29.
2. Зелинский С.П. Экономический быт государственных крестьян Зангезурского уезда Елизаветпольской губернии// МИЭбГКЗК. т.IV. часть 1. Тифлис, 1886, с.1-203.
3. Карашарли А. Санитарно-бытовые очерки азербайджанской провинции// Известия Общества обследования и изучения Азербайджана. Баку, № 6, 1928, с.47-65.
4. Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII начало XX в.). Баку, «Элм», 1989, с.127.
5. Хан-Егов А.Е Экономический быт государственных крестьян Джеванширского уезда Елизаветпольской губернии // МИЭбГКЗК Тифлис. т.VI. часть 2. 1887, с.335-435.
6. Чурсин Г.Ф. Азербайджанские курды (Этнографические заметки)// Известия Кавказского Историко-археологического Института. Тифлис, т. 3. 1925, с.1-16.
7. Azərbaycan etnoqrafiyası. I cild. Bakı, “Elm”, 1988, s. 444.
8. Həvilov H.A. Azərbaycanın maldarlıq mədəniyyəti. Bakı, 1987, s.81.

РЕНА ИБРАГИМОВА
доктор философии по истории, доцент кафедры Археологии и Этнографии Бакинского Государственного Университета

ЭТНОГРАФИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ НЕМАТЕРИАЛЬНОГО КУЛЬТУРНОГО НАСЛЕДИЯ КАРАБАХА

Данная статья посвящена изучению этнического состава населения, хозяйственной деятельности, семейного быта на основе письменных источников второй половины XIX века, посвященных Джеванширскому и Зангезурскому уездам Елизаветпольской губернии. В составе населения были азербайджанцы, в небольшом числе курды-шииты, армяне, таты и русские сектанты. Занимались пашенным богарным и поливным земледелием, садоводством, виноградарством, пчеловодством, выращивали зерновые и бобовые культуры, хлопок, рис, использовали искусственное орошение. Важное значение имело яйлажное скотоводство, обеспечивающее население мясо-молочными продуктами и сырьем для кустарного ткачества, ковроделия. В статье исследованы патриархальные обычаи азербайджанцев: правила раздела имущества после смерти отца, заключения брака по шариату, «кровной мести».

Ключевые слова: Карабах, Зангезур, этнический состав населения, животноводство и земледелие, ремесло, семейный быт.

RENA IBRAHIMOVA
Doctor of Philosophy in History, Associate Professor of the Department of Archeology and Ethnography Baku State University

AN ETHNOGRAPHIC STUDY OF THE INTANGIBLE CULTURAL HERITAGE OF KARABAKH

This article is devoted to the study of the ethnic composition of the population, economic activity, family life based on written sources of the second half of the 19th century, dedicated to the Dzhevanshir and Zangezur districts of the Yelizavetpol province. The population included Azerbaijanis, a small number of Shiite Kurds, Armenians, Tats and Russian sectarians. They were engaged

in arable dryland and irrigated agriculture, gardening, viticulture, beekeeping, grew grain and legumes, cotton, rice, used artificial irrigation. Yaylag cattle breeding was of great importance, providing the population with meat and dairy products and raw materials for handicraft weaving, carpet making. The article examines the patriarchal customs of Azerbaijanis: the rules for dividing property after the death of a father, marriage according to Sharia, "blood feud".

Keywords: Karabakh, Zangezur, national composition, livestock breeding and agriculture, crafts, family life.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 oktyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.e.d. Nərgiz Quliyeva, t.e.d. Qabil Əliyev.